| "Dövlət qeydiyyatına alınmışdır"<br>Azərbaycan Respublikasının<br>Ədliyyə Nazirliyi<br>Qeydiyyat 3231<br>"07" iyul 2006-cı il<br>-<br>-<br>Nazir______________ Fikrət Məmmədov | "Təsdiq edilmişdir"<br>Azərbaycan Respublikası<br>Əmək və Əhalinin Sosial<br>Müdafiəsi Nazirliyi<br>kollegiyasının<br>"22" iyun 2006-cı il<br>tarixli 8 -li qərarı ilə<br>Nazir ______________ Fizuli Ələkbərov |
|---|---|

-

**~~"Təhsil sahəsi işçilərinin qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"na (hissə 75) əlavələr~~** [1]

-

**~~Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 29 mart 1997-ci il tarixli 16-4/3 nömrəli qərarı ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 04 aprel 1997-ci il tarixdə dövlət qeydiyyatına alınmış (şəhadətnamə 40) "Təhsil sahəsi işçilərinin qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"na (hissə 75) aşağıdakı əlavələr edilsin:~~**

-

~~1. "Ali məktəblər" adlı "XIII BÖLMƏ"də "Rektor" vəzifəsinin tarif-ixtisas xüsusiyyətlərindən sonra aşağıdakı redaksiyada "Birinci prorektor" vəzifəsinin tarif-ixtisas xüsusiyyətləri əlavə edilsin:~~

-

**~~Birinci prorektor~~**

-

~~**Əmək funksiyası:** Rektor qarşısında cavabdehlik daşımaqla bütün işçilər, tələbələr, aspirantlar, doktorantlar və dinləyicilər üçün məcburi olan sərəncam və göstərişlər verir. Tədris, elmi-tədqiqat işlərinə, elmi və elmi-pedaqoji kadrların hazırlanması, beynəlxalq əlaqələr, humanitar, təsərrüfat və digər sahələr üzrə işlərə nəzarət etməklə rektor qarşısında hesabat verir.~~

~~Rektor olmadıqda onun səlahiyyətlərini icra edir.~~

~~**Bilməlidir:** Təhsil, elm və tərbiyə məsələlərinə dair hökumət və dövlət orqanlarının qərarlarını, ali təhsillə və elmi-tədqiqatla bağlı normativ sənədləri, xarici ölkələrin elm və təhsil sahəsindəki nailiyyətlərini, ali məktəb pedaqogikası və psixologiyasını, təhsilin iqtisadiyyatını, maliyyə-təsərrüfat fəaliyyətinin əsaslarını, tədrisin təşkilini, əmək qanunvericiliyi və əməyin mühafizəsini, texniki təhlükəsizlik və yanğından mühafizə qaydalarını.~~

-

**~~Ödəniş dərəcəsinə ixtisas tələbləri:~~**

~~18-ci dərəcə - müvafiq profil üzrə alimlik dərəcəsi, elmi adı, pedaqoji sahədə və ya rəhbər vəzifələrdə 5 ildən az olmayan əmək stajı olmaqla özünüidarəetmə prinsipi əsasında fəaliyyət göstərən ali məktəblərdə çalışdıqda.~~

~~2. "Təhsil, təlim-tərbiyə sahəsində qulluqçu vəzifələrinin adı və dərəcə diapazonu" cədvəlinin "Vəzifələr" sütununda XIII bölmədə "Rektor" sözündən sonra "Birinci prorektor" sözləri və "Dərəcələr diapazonu" sütununda bu vəzifənin qarşısında "18" rəqəmi əlavə olunsun.~~

-

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

-

1. 20 dekabr 2017-ci il tarixli **18-1** nömrəli Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının Qərarı

**BÜLLETENƏ EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

-

---

[1] 20 dekabr 2017-ci il tarixli **18-1** nömrəli Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının Qərarı ilə ləğv edilmişdir.